# İSMAYIL MƏMMƏDLİ- 75



AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin müdiri, professor, filologiya elmləri doktoru İsmayıl Məmmədlinin 2021-ci il noyabr ayının 15-də 75 yaşı tamam olur. Professor İsmayıl Məmmədli 1962-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun (indi Azərbaycan Dillər Universiteti adlanır) alman-Azərbaycan dilləri şöbəsinə daxil olub, 1967-ci ildə həmin institutu bitirib. 1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında elmi və ədəbi nəzarət redaksiyasında transkripsiyaçı-redaktor vəzifəsində işə başlayıb. 1968-ci ildən 1969-cu ilin mayınadək hərbi xidmətdə olub. 1969-1970-ci illərdə yenidən Ensiklopediyada böyük elmi redaktor vəzifəsində çalışıb.

1970-ci ildə Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun əyani aspiranturasına qəbul olunub, 1973-cü ildə oranı bitirib. 1974-cü ildən 1979-cu ilədək Nitq mədəniyyəti şöbəsində kiçik elmi işçi, 1980-cı ildən 1989-cu ilədək baş elmi işçi vəzifələrində çalışıb. 1974-cü ildə "Kommunist" qəzetinin leksikası" adlı namizədlik dissertasiyasını, 1993-cü ildə "Azərbaycan dilinin etnoqrafik leksikası" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 2008-ci ildə AAK tərəfindən ona "Professor attestatı" təqdim edilmişdir. 1989-cu ilin fevralından institutun "Lüğətçilik" şöbəsinin müdiridir (hazırda "Tətbiqi dilçilk" adlanır). Bu illər ərzində onun 13 monoqrafiya, dərs vəsaiti, lüğət, danışıq kitabı və 200-dən çox elmi əsəri, publisistik məqaləsi və resenziyaları çap olunmuşdur. Aşağıdakı əsərlərin müəllifidir: "Ekran, efir və dili-miz" (Bakı, 1989); "Azərbaycanca-rusca danışıq kitabı" (Bakı,1995); "Azərbaycan dilinin izahlı lüğəti" (3 cildlik, tərtibçi, Bakı, 1997, 1999, 2000); "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (Bakı, 2004, 2021, kollektiv); "Azərbaycan dili" (dərs vəsaiti, Bakı, 2001, VIII sinif üçün); "Azərbaycan dili" (dərs vəsaiti, Bakı, 2002, IX sinif üçün); "Axtarışlar, yozum-lar, anımlar" (Bakı, 2006); "Azərbaycan dilinin etnoqrafik leksikası", (Bakı, 2009), "Qəzet dilinin leksikası" (Bakı, 2010); "Səməd Vurğunun bədii dilinin izahlı lüğəti" (Bakı, 2011, kollektiv, redaktor və tərtibçi); "Azərbaycanca-rusca izahlı hüquq lüğəti" (Bakı, 2012); "Azərbaycanca-ingiliscə izahlı hüquq lüğəti" (Bakı, 2012); "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (redaktor, tərtibçi, VI nəşr, Bakı, 2013).

İsmayıl Məmmədli Azərbaycan dilçiliyinin lüğətçilik, etnoqrafik leksika, və nitq mədəniyyəti sahələri ilə məşğul olmuşdur. İsmayıl müəllim 48 ildir ki, Azərbaycan Milli Elmlər Akademiyasında çalışır. O, bu müddət ərzində rəhbərlik etdiyi şöbədə bir sıra kollektiv əsərlərin ərsəyə gəlməsinə nail olmuş, Azərbaycan dilinin müxtəlif problemlərinə aid araşdırmalara başçılıq etmişdir. O, mərhum Ümummilli liderimiz Heydər Əliyevin prezidentliyi dövründə yaradılan Dövlət Dil Komissiyasının üzvü olmuş, Azərbaycan dili haqqında dövlət başçısı tərəfindən verilən bir sıra qanun və

sərəncamların hazırlanmasında və müzakirəsində fəal iştirak etmişdir. O, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (indiki Dövlət İmtahan Mərkəzinin) Azərbaycan dili üzrə ilk ekspertlərindən biri olmuşdur.

İsmayıl Məmmədli 1981-1989-cu illərdə Azərbaycan Dövlət Televiziya Şirkətində "Azərbaycan dili" və "Dil xalqın mənəvi sərvətidir" proqramlarını hazırlamış və aparıcısı olmuşdur.

İsmayıl Məmmədli bir çox lüğətlərin: "C.Cabbarlının dilinin lüğəti", "Azərbaycan dilinin frazeologiya lüğəti", "Azərbaycanca-ispanca", "Azərbaycanca-italyanca", "Azərbaycanca-bolqarca", "Azərbaycanca-çexcə", "Azərbaycanca-polyakca" və b. ikidilli lüğətlərin redaktoru və tərtibçilərindəndir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur (2013-cü il). "Həsən bəy Zərdabi diplomu və mükafatı" laureatı (2004), "Səməd Vurğun mükafatı" laureatıdır (2014). "Əmək veteranı" medalı ilə təltif olunub.

Professor İsmayıl Məmmədli AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi Dilçilik şöbəsində 48 ildir ki, fəaliyyət göstərir. Şöbə hazırda bir çox elmi-nəzəri işlərin tədqiqi ilə məşğuldur, orfoqrafiya, izahlı və ikidilli lüğətləri çapa hazırlayır. Professor İsmayıl Məmmədli 1994-cü ildən AMEA Nəsimi adına Dilçilik İnstitutunun nəzdindəki filologiya üzrə elmlər doktorluğu Dissertasiya Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dil Komissiyasının üzvü (2001, 2017), İnstitut Elmi Şurasının üzvü, Azərbaycan Yazıçılar, Jurnalistlər və Aşıqlar Birliyinin üzvüdür. 2002-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Qanunvericilik İdarəsində baş məsləhətçi-müşavir kimi çalışır.

Moskva, Mahaçqala, Orconikidze (Vladiqafqaz), Maykop, Ufa şəhərlərində və Türkiyə və Quzey Kıprıs Respublikalarında elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Onun elmi rəhbərliyi ilə 22-dən artıq fəlsəfə doktoru və 4 nəfər elmlər doktoru dissertasiya müdafiə etmişdir. Təxminən 100 nəfərin rəsmi opponenti, 30-dan çox iddiaçının, publisistin və gənc yazarın əsərlərinin rəyçisi olmuşdur.

Professor İsmayıl Məmmədlini 75 illik yubileyi münasibətilə təbrik edir, ona yeni elmi nəaliyyətlər arzulayırıq.

*Baba Məhərrəmli*